Ədalət .- 2025.- 3 oktyabr (№37).-S.10.

# Şərəfli Müəllim ömrü

***"Müəllim adı ən yüksək addır. Mən yer üzündə müəllimdən yüksək ad tanımıram."***

***Heydər Əliyev***

Azərbaycan Respublikasının Şərq və Qərb sivlizasiyalarının qovuşduğu coğrafi bir məkanda yerləşməsi təhsilimizin inkişafı üçün böyük zəmin yaratmışdır. Təhsilimizin istər Sovetlər dönəmində, istərsə də müstəqillik əldə etdikdən sonrakı inkişafında ümummilli lider Heydər Əliyevin rolu əvəzsizdir. Həmişə müəllim haqqında çox gözəl sözlər deyilib, müxtəlif ifadə səslənib. Ümumiyyətlə, müəllimlik dünyanın ən nəcib peşələrindən biri, bəlkə də birincisidir. Bu yazdığım dəyərlərə cavab verən bacarıqlı müəllimlərdən biri də Yeganə Cabbar qızı Məmmədovadır.

O, 1981-ci ildə Bakı şəhərində anadan olub. N. Nərimanov rayonu 82 nömrəli tam orta məktəbdə təhsil alıb. 2004-cü ildə Azərbaycan Dövlət Pedaqoji universitetinin İbtidai təhsilin pedaqogiyası və metodikası fakültəsini bitirib. 2008-ci ildən Abşeron rayon Xırdalan şəhəri 2 nömrəli tam orta məktəbdə fəaliyyətə başlayıb. Xırdalan şəhərində yerləşən "Zirvə" liseyində ibtidai sinif müəllimi kimi çalışıb. Həmin liseydə həmçinin ibtidai siniflər üzrə metodbirləşmə vəzifəsini də icra edib. Hazırda Xırdalan şəhərində 11 saylı tam orta məktəbdə ibtidai sinif müəllimi kimi fəaliyyətini uğurla davam etdirir.

11 saylı Xırdalan şəhər tam orta məktəb üç ildir ki, fəaliyyət göstərir. Məktəbdə davamiyyət və nizam-intizam məsələləri yüksək səviyyədə qurulub.

Şagirdlərdə elmə həvəs, vətənə məhəbbət hissləri hələ ibtidai siniflərdə başlayır ki, bu da onların yuxarı siniflərdə daha yaxşı oxumaları üçün möhkəm baza yaradır. Bu çətin işin öhdəsindən layiqincə gələn məktəbin tədris işləri üzrə direktor müavini Aidə Ramazanova, ibtidai sinif müəllimləri - Günel Məmmədova, İlhamə Rəsulova, Vüsalə Həsənova və başqaları bacarıqla gəlirlər. Məktəbin direktoru Elşən Quliyev məktəb haqqında məlumat verərək dedi:

- "Məktəbimizdə yuxarı sinif şagirdləri üçün dərslər əsasən kabinet üsulu ilə keçirilir və yüksək səmərə verir. Burada günün tələblərinə cavab verən zəngin kabinetlər yaradılaraq şagirdlərin ixtiyarına verilib. Məktəbdə biologiya, kimya, ingilis dili, tarix, ədəbiyyat yüksək zövqlə yaradılmış başqa kabinetlər fəaliyyət göstərir. Həmçinin, məktəbdə şagirdlərin bütün təlabatlarını ödəmək gücündə olan zəngin kitabxanada günün tələblərinə cavab verir. Məktəbdə elmi, mədəni tədbirlərin, görkəmli elm və mədəniyyət xadimlərinin yubileylərini, onlarla görüşlərin təşkil edilməsi gözəl bir ənənəyə çevrilib."

Mən dəfələrlə Yeganə müəllimin obeyktiv, prinsipal, qarşısındakı insana hörmətlə yanaşan, müəllim əməyinə yüksək qiymət



verən bir şəxsiyyət olduğunun şahidi olmuşam. Yeganə müəllim şərəfli ömür yolu keçib. Böyüməkdə olan gənc nəslin təlim-tərbiyəsində zəhməti çoxdur. Yeganə müəllim eyni zamanda gözəl pedaqoq, daima təhsildə yenilik axtaran, onu tətbiq edən səriştəli, təcrübəli, intellektual biliyə malik olan və sadəliyi ilə fərqlənən bir insandır.

Xüsusən, onun müəllimlərə və şagirdlərə yanaşma tərzi, münasibəti, qayğıkeşliyi, diqqəti cəlb edir. O, öz sənətinin vurğunu kimi, təhsil sisteminin təkmilləşdirilməsində və inkişafında həmişə seçilib.

**Biz də öz növbəmizdə gözəl, səmimi insan, təcrübəli müəllim - Yeganə Cabbar qızını və bütün müəllimləri peşə bayramları münasibətilə ürəkdən təbrik edir, cansağlığı, çətin və şərəfli işlərində uğurlar arzulayırıq. Peşə bayramınız mübarək.**

**Elşad Dağlı,**
**"Cabir Novruz" Mədəniyyət Fondu mətbuat xidmətinin rəhbəri, AYB və AJB-nin üzvü, yazıçı-publisist**